AZƏRBAYCAN XƏBƏRLƏRİ

# ABB kartlardakı texniki problemin həll olunduğunu bildirir

1 saat öncə




Bank kartları

Azərbaycan Beynəlxalq Bankı (ABB) iyunun 24-də bir çox müştərinin kartından vəsait silinməsi ilə bağlı açıqlama yayıb. Məlumata görə, bəzi kart hesablarında yaranmış müvəqqəti texniki problem artıq tam aradan qaldırılıb.

**"Yaranmış vəziyyət "Azərikard" Prosessinq Mərkəzinin xidmət göstərdiyi bir sıra banklarda banklararası hesablaşma fayllarının emalı zamanı yaranmış texniki nasazlıq nəticəsində bəzi əməliyyatların müvəqqəti olaraq təkrar əks olunması ilə bağlı idi. Məsələ operativ şəkildə həll edilib və bütün hesablar tam bərpa olunub"**, – bankın rəsmi açıqlamasında bildirilir.

24 iyun

## Bank müştərilərinin kartından təkrar pul silindi – Səbəb açıqlanıb

İyunun 24-də "Azərikard" prosessinq mərkəzi ilə əməkdaşlıq edən yerli bankların bir sıra müştəriləri kart hesablarından vəsaitlərin təkrar silindiyindən şikayətləniblər. Şikayətlər əsasən maaş kartlarını əhatə edib.

AzadlıqRadiosuna adlarının açıqlanmasını istəməyən vətəndaşlar bildiriblər ki, kartlarından 30 manat və daha çox məbləğdə vəsait silinib.

Yerli medianın sorğusuna cavab olaraq **"Azərikard" MMC**-dən bildirilib ki, kart əməliyyatlarında yaranan texniki nasazlıq onlarla bağlı deyil.

Azərbaycan Mərkəzi Bankından (AMB) verilən açıqlamada isə vurğulanır ki, təkrar vəsait silinməsi kibermüdaxilə və ya dələduzluqla bağlı deyil, sırf texniki xarakterli hadisədir: **"Əhalinin diqqətinə çatdırılır ki, Azərbaycan Mərkəzi Bankının ödəniş sistemlərinin, ölkədə fəaliyyət göstərən prosessinq mərkəzlərinin, kommersiya banklarının informasiya sistemlərinin və ödəniş infrastrukturunun sabitliyi, davamlılığı və etibarlılığı ilə bağlı heç bir problem yoxdur. Sözügedən texniki nasazlıq artıq tamamilə aradan qaldırılıb."**

Qurum bank müştərilərini yalnız rəsmi mənbələrin yaydığı məlumatlara etibar etməyə çağırır.

AzadlıqRadiosu © 2026 Inc. | Bütün hüquqlar qorunur